**«Dirçəliş XXI əsr».**–2010.-№141-142.–S.239-247.

# XX ƏSRDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI SİYASƏTİNİN TARİXİ MƏRHƏLƏLƏRİ

**Rüfət ƏHMƏDZADƏ,**
*Qərb Universiteti*

***"Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz".***

**Heydər ƏLİYEV**

Ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə xalqımızın tarixinin dərindən öyrənilməsi, gələcək nəsillərə çatdırılması sahəsində önəmli işlər görülmüş və bir çox tarixi sənədlər qəbul olunmuşdur.

Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri sırasında xalqımızın məhvinə, torpaqlarımızın işğalına yönəlmiş erməni siyasətinin və onların törətdikləri cinayətlərin açılmasına və dünya ictimaiyyətinə çatdırılmasına, yaddaşlarda möhkəmlənməsinə xidmət edən "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı (1) xüsusi yer tutur.

Bu fərmanda erməni daşnaqlarının ayrı-ayrı tarixi mərhələlərdə xalqımıza qarşı törətdikləri amansız cinayətlərinə ilk dəfə siyasi-hüquqi qiymət verilir, tarixin qaranlıq səhifələrinə işıq salınır. Belə ki, uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Lakin təəssüf hissi ilə xatırlatmalıyıq ki, daşnaq tör-töküntülərinin iblisanə siyasəti obyektiv və subyektiv səbəblərdən vaxtında beynəlxalq aləmdə istənilən səviyyədə ifşa olunmamış, azərbaycanlılara qarşı törədilmiş soyqırımların siyasi-hüquqi qiyməti verilməmişdir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır".

Belə ki, XIX əsrin əvvəllərində çar Rusiyası (Azərbaycanın bölüşdürülməsinə dair 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra) qədim Azərbaycan torpaqlarında bufer zona yaratmaq məqsədilə "Erməni dövləti" qurmaq planını həyata keçirməyə başlamışdı. Bu məqsədlə İran və Türkiyə ərazilərin-dən Azərbaycana 300000 erməni köçürülmüş və İrəvan, Naxçıvan, Dağlıq Qarabağ, Zəngəzur, Mehri, Qafan, Ordubad, Vedibar, Gəncə və digər ərazilərdə yerləşdirilmişdi.

Çar Rusiyasının himayəsinə söykənərək azğınlaşan ermənilər öz ərazi iddialarını həyata keçirmək üçün siyasi partiyalar, silahlı quldur dəstələri yaratmağa başladılar. 1885-1890-cı illərdə yaradılan "Armenikan", "Hınçaq" və "Daşnaqsütyun" partiyaları "Böyük Ermənistan" şüarı irəli sürüb bu planın reallaşması üçün Anadolu türklərinə və azərbaycanlılara qarşı nifrət və düşmənçilik təbliğatına başladılar. 1905-ci il I Rusiya burjua inqilabının başlanması ilə ölkədə yaranmış hərc-mərclikdən istifadə edən ermənilər çar Rusiyasının hakim dairələrinin hərbi-siyasi yardımı ilə İrəvanda, Bakıda, Şuşada, Gəncədə, Qazax-da və digər yerlərdə azərbaycanlılara qarşı qırğınlar törətdilər. Nəticədə. 1905-ci il fevralın 6-9-da və avqustun 20-25-də Şimali Azərbaycanın Bakı, Şuşa və digər şəhər və kəndlərində minlərlə azərbaycanlı qətlə yetirildi.

Ümumiyyətlə, 1905-1907-ci illərdəki qanlı cinayətlər nəticəsində 10 mindən artıq azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox insan qaçqın düşmüşdür. Bundan sonrakı illərdə də dəfələrlə açıq və gizli terrorun qurbanı olmuşuq.

Belə ki, I Dünya müharibəsindən sonra Rusiyada yaranmış ictimai, siyasi vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş verən fevral inqilabı və oktyabr çevrilişindən sonra öz istədiklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd edirdilər. Bakı kommunası əksinqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin martından başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların, müsəlmanların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başladı. 3 gün ərzində azərbaycanlılara qarşı törədilən qətliamlar qabaqcadan düşünülmüş, ən incə nöqtələrinə qədər hesablanmışdı.

Həmin dövrdə erməni siyasi partiyaları guya "Böyük Azərbaycan" və ya "Böyük Müsəlman Dövləti" düşüncəsini elə beşikdə boğmaq üçün hərbi sursatla təchiz olunmuş, təqribən 8000 erməni əsgərini müxtəlif cəbhələrdən Bakıya gətirmişdilər. Bundan başqa "Qızıl Qvardiya" adı altında yaradılan 10000 - 12000 nəfərlik ordunun da 75%-i ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşma əsasında bolşevik-erməni koalisiyası S. Şaumyanın da ifadə etdiyi kimi, savaşa hər cür hazırlığı etmişdi və bütün cəbhə boyu hücuma keçdi (11, s.4).

1918-ci il 30 mart axşam saat 05:00-da Bakıda ilk atəş səsləri eşidildi. Əvvəlcədən planlaşdırılmış şəkildə təkcə erməni əsgərləri deyil, Bakıdakı ermənipərəstlər də bu savaşa qoşuldular. Yaxşı silahlanmış və hərbi hazırlıqlı erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək, onları öldürür, 3-4 günlük körpələri xəncərlə qətl edir,

uşaqlan alovlar içinə atırdılar. Qadınlar daha ağır şəkildə öldürülürdülər. Arxiv materiallarına görə qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 57 qadının meyiti tapılmışdı.

Cənubi Azərbaycan türklərindən Mir Cəfər Pişəvəri öz xatirələrində yazır: "Mən 1918-ci ilin martında erməni daşnaqlarının vəhşiliklərini, günahsız adamların öldürülüb, meyitlərin yandırılmasını öz gözlərimlə gördüm. Bu, çox nifrət ediləcək bir hərəkətdir."

N.Nərimanov isə erməni vəhşiliklərinin törətdikləri qətliamlar haqqında qeyd edir ki, hətta bolşevik olan bir müsəlmana belə aman verilmədi. Daşnaqlar "bolşevikliyinizi tanımırıq. Bır halda ki, müsəlmansız, bu yetər", deyirdilər. Bolşevik adı altında müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar bunlardan canlarını qurtara bilmədilər.

Diqqət etdikdə, Bakıda törədilən bu soyqırıma "vətəndaş müharibəsi" adının verilməsi, qətlə yetirilənlərin sayının azaldılması üçün səylə çalışan S.Şaumyan 13 apreldə Moskvaya göndərdiyi məktubda yazır: "Üç gün içində, yəni 1918-ci ilin 30-31 mart və 1 apreldə Bakıda şiddətli bir savaş oldu. Sovet ordusu, bizim yaratdığımız Beynəlxalq Qızıl Ordu və Erməni milli ordusu Müsavat Partiyasının liderliyindəki müsəlman "Dikaya Diviziya"sıyla və silahlı müsəlman quldurlarıyla savaşdılar. Bu savaşda yüksək nəticələr əldə etdik. Düşmən tamamilə məhv edildi. Hər iki tərəfdən öldürülənlərin sayı 3000-dən çoxdur. Əgər müsəlman türkləri qalib gəlsəydilər, Bakı Azərbaycanın paytaxtı elan ediləcək, Qafqaz Rusiya üçün itirilmiş olacaq, bütün qeyri-müsəlmanlar isə qətliama məruz qalacaqdılar".

Mart qırğınından bir il sonra ermənilər bu hadisələri bolşeviklərlə müsəlmanlar arasında cərəyan edən hakimiyyət mübarizəsi kimi mətbuata yaydılar. 1919-cu ilin yayında ABŞ tərəfindən Bakıya göndərilən general Harborda təqdim edilən sənəddə erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını inkar edir. S.Şaumyandan da qabağa gedərək Baqrat Bakıda mart hadisələri sırasında öldürülən 1000 nəfərdən 300-nün erməni və rus, 700-nün müsəlman olduğunu iddia edirdi. Tarixçilərimiz iddia edirlər kı, 1918-ci ildə ermənilər Bakı və Şamaxıda azərbaycanlıların daha kütləvi qırğınlarım törədiblər. Həmin dövrdə, Bakıda cəmi üç gün ərzində 12 min nəfər qətlə yetirilmişdi (5, s. 24, 29); (11, s. 5).

1918-ci il aprel ayının ilk on günlüyündən etibarən, Bakıda törədilən bu qətliamlar eynilə Şamaxı, Quba - Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər bölgələrdə də edildi.

Ermənilərin 1918-ci il mart və aprel aylarında Şamaxı və ona qonşu kəndlərdə törətdikləri qətliamları isbat edən çoxlu sayda arxiv materialı var. Bu materiallar arasında 22 noyabr 1918-ci ildə Təcili Araşdırma Komissiyasının başçısı A.Xasməmmədovun Azərbaycan Respublikası Ədliyyə Nazirliyi başçısına Şamaxı şəhəri və ona qonşu kəndlərin dağıdılması və müsəlman əhali üzərində ermənilərin işgəncələri və cinayətləri haqqında məlumatım, həmin komissiyanın üzvü A.Novatskinin bu məsələ ilə bağlı komissiya başçısına verdiyi məlumatı, bu işlərdə cinayətkar şəxslərlə bağlı məhkəmə işinə başlanılması haqqında Təcili Araşdırma Komissiyasının 12 iyul 1919-cu il tarixli qərarını göstərmək olar.

Şamaxı şəhəri və ona qonşu olan kəndlərdə ermənilər tərəfindən törədilən soyqırımı hadisələri haqqında 7 cild, 925 səhifədən ibarət araşdırma materiallarında toplanmış məlumatlar ermənilərin cinayət və qətliamlar etdiklərini bir daha göstərir. Onu da qeyd edək ki, adını qeyd etdiyimiz Araşdırma Komissiyası tərəfindən hazırlanan sənədə görə hələ yanvar ayında Bakı Soveti tərəfindən 15 maşın dolusu silah, mart ayının ortalarında isə 60 maşın dolu silah və 2000 erməni əsgəri Şamaxıya göndərilmişdi. Şamaxıda üstünlüyü ələ keçirən ermənilər buranı Azərbaycan türklərindən təmizləməyə başladılar. Erməni işğalçı ordusunun komandanlığına S.Şaumyanın köməkçisi və bilavasitə ondan təlimat alan S.Lalayan liderlik edirdi. Qoşunu ilə Şamaxıya gələn S.Lalayan ilk olaraq yaşlıların, qadın və uşaqların gizləndiyi məscidi mühasirəyə almağı, sonra isə yandırmağı əmr etdi.

Tarixi sənədlərdə göstərilir: "Uşaq və qadınların böyük bir hissəsi məsciddə gizləndi. Tanınmış Axund Molla Səfərqulu öldürüldü. Hər kəs axunda bir şey edilməyəcəyini düşünürdülər. Amma ermənilər məscidə girərək, axundu tapdılar. Onun gözlərini çıxarıb, dilini, burnunu və qulaqlarını kəsdilər məsciddəki bütün qadınlar öldürüldü".

Tarixçilərimizin qeyd etdiyi kimi, 1918-ci ilin mart ayında Şamaxının 58 kəndi Bakı Sovetinə bağlı erməni ordusu tərəfindən dağıdıldı. Təqribən 8000-ə yaxın insan öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaq idi (10, s. 5).

1918-ci ildə 15000 əhalisi olan Şamaxının 1921-ci ildə əhalisi təqribən 1701 nəfərə enmişdi. (5, s. 25)

Yuxarıda da qeyd etdiyimiz kimi, bu kütləvi soyqırımı hadisələri təkcə Bakı və Şamaxıda deyil, Azərbaycanın demək olar ki, bütün bölgələrində həyata keçirilmişdi. Quba qəzasına göndərilən erməni silahlı birləşmələrinə isə S.Şaumyandan bilavasitə əmr alan Hamazasp başçılıq edirdi. Aprel ayında bu bölgənin 122 kəndi dağıdılmış, yüzlərlə müsəlman türk və ləzgi qətlə yetirilmişdi. Heç təsadüfi deyil ki, 2007-ci il aprelin əvvəllərində Quba ərazisində kütləvi məzarlıqlar aşkar edilmişdir. Bütün bunlar bir daha azərbaycanlılara qarşı soyqırımı təsdiqləyir (6, s. 29).

Ermənilərin Qubada törətdikləri qətliamlar haqqında həmin dövrdə şəhərin rəisi olmuş A.Əlibəyov yazır: "Ermənilər şəhəri tərk etdikdən sonra mən şəhərə dəyən maddi zərəri dəyərləndirdim və eyni zamanda bir neçəsi uşaq və qadın olmaq üzrə 2000-dən çox müsəlmanların qətl edildiyini araşdırdım" (6, s. 29).

Qubada aşkarlanan kütləvi məzarlıq ermənilərin XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törətdikləri soyqırımının əyani sübutudur. Tarixi məlumatlara görə, ermənilər Qubada 16.000 nəfəri vəhşicəsinə qətlə yetiriblər.

122 kəndi viran qoyublar (5, s. 27).

Qeyd etmək lazımdır ki, Qubadakı kütləvi məzarlıqdan bir qədər əvvəl Neftçalada da analoji məzarlıq tapılıb. Hazırda AMEA alimlərinin səyi nəticəsində tədqiqat işləri davam etdirilir.

"Genosid qurbanı olmuş azərbaycanlı müsəlmanların kütləvi məzarlıqlarının çoxu işğal olunmuş Qarabağda və müasir Ermənistanın ərazisində yerləşir. Bu yerləri şahidlərin xatirələri və tarixi sənədlərlə aşkar etmək asandır. Məsələn, vaxtilə erməni cinayətkarı Vaaram 1918-ci ildə azərbaycanlıları qırdığına görə öyünürdü:

"Azərbaycanlı müsəlmanlarına güllə sərf etmək də heyfdir. Mən Basarkeçərdə (hazırda Vardenis rayonu) elə belə edirdim: qadın və uşaqlan quyuya doldurub, daşlarla axırlarına çıxırdım".

Odur ki, bu faktın beynəlxalq təşkilatlar və digər ölkələr tərəfindən rəsmi şəkildə tanınması məqsədilə, Azərbaycan alimləri arxiv sənədləri və Qubada tapılan insan qalıqlarına əsaslanaraq, müvafiq müraciətlər ünvanlanacaqlar. Bütün bunlar isə xarici ekspertlərin iştirakı ilə araşdırmaları tələb edir. Odur ki, Prezident İlham Əliyev soyqırımı faktlarının aşkarlanması üçün 4 sərəncam imzalayıb.

Bir daha yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, obyektiv tariximizə etinasızlıq olmaz.

Ermənilərin Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba və Lənkəran işğalından sonra sırada hədəfi Gəncə idi. Onlar bu dəfə Qarabağda yaşayan ermənilərlə birləşib, Gəncəyə hücuma hazırlaşırdılar. Bunu S.Şaumyan Xalq Komissarları Sovetinə göndərdiyi məktubda da etiraf edirdi. Onun planına görə, Sovet ordusu Yevlax körpüsünü ələ keçirib, Kür çayı boyunca müdafiə xətti quracaq, sonra bu ordu Gəncəyə yeridiləcək və sonda digər bölgələrdəki ermənilərlə birləşəcəkdilər. Amma 1918-ci ilin mayında ADR-ın qurulması, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması işğalçıların mənfur planlarının puça çıxması ilə nəticələndi.

Beləliklə, 1918-ci ilin mart - aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni qəddarları 50000-dən artıq azərbaycanlı müsəlmanlarını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar (9, s. 5).

1915-ci ilin mart ayında Türkiyənin Van əyalətində ermənilər üsyan qaldırdılar. Erməni terrorçuları Van şəhərini ələ keçirərək, 3000-dən çox türkü qətlə yetirdilər. XX əsrin əvvəllərində 1915-ci ildə Birinci dünya müharibəsi zamanı Şərqi Anadoluda türk ordusunun həmləsindən qorxub qaçmış erməni millətçiləri Azərbaycanda öz vəhşiliklərini, qanlı cinayətlərini davam etdirirdilər. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında. əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3000 nəfərlik azərbaycanlılardan ibarət köç pusquya salınaraq məhv edilmişdir. 50000 azərbaycanlı qaçqın düşmüşdür. Erməni quldur dəstələri daha sonra Dağlıq Qarabağa yürüş etmiş, 1918—1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir. Təkcə İrəvan quberniyası ilə qonşu olan Azərbaycanın Zəngəzur mahalında 115 kənd dağıdılmış, 3257 nəfər kişi, 3276 nəfər qadın, 2196 uşaq qətlə yetirilmişdir (2, s. 31-32). 1918-ci ilin mart - aprel aylarında ermənilərin törətdikləri cinayətlərlə tanış olduqda, 1948-1953-cü illərdə SSRİ Nazirlər Sovetinin İ.V.Stalinin imzası ilə təsdiqlənmiş qərarına əsasən 100 min azərbaycanlı Ermənistanın dağlıq rayonlarından Azərbaycanın malyariya yayılmış qızmar iqlimi olan Kür-Araz ovalığına köçürülmüşdür. 100.000-dən artıq Azərbaycan türklərinin köçürülməsini və sonra bu haqsızlıqlardan ilham alan erməni daşnaqları 1988-ci ilin fevralında Ermənistandan Azərbaycana qaçqınların kütləvi axını başladı. 230 mindən artıq azərbaycanlı müsəlmanlarını öz doğma yurd-yuvasından silah gücünə qovub çıxarmış, 215 nəfəri isə qətlə yetirmişlər. Erməni silahlıları müdafiəsiz insanları amansızcasına qarət edir, döyür, vəhşicəsinə öldürürdülər. Bu, həmin torpaqlarda min illər boyu yaşamış insanlara qarşı erməni daşnaqları tərəfindən çoxdan işlənib hazırlanmış plan üzrə davamlı olaraq aparılan etnik təmizləmə əməliyyatının tərkib hissəsi idi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı cinayətkar hərbi əməliyyat həyata keçirildi. Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə qarşı, SSRİ rəhbərliyinin Azərbaycan xalqı barəsində apardığı qərəzli siyasətə və yerli rəhbərliyin xəyanətkar fəaliyyətinə qarşı etiraz əməliyyatı olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın bir sıra rayonlarına sovet hərbi hissələri yeridildi. Beləliklə, qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 131 adam öldürüldü. 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur (2, s. 47).

1992-ci il fevral ayının 25-dən 26-sına keçən gecə saat 12-də, erməni hərbi quldurları Xankəndində olan keçmiş SSRİ 366-cı motoatıcı polkunun ağır texnikası və şəxsi heyətinin köməkliyi sayəsində Xocalı şəhərinin dinc sakinlərinə qarşı amansız qırğın törətdilər.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlı müsəlmanının meyiti gətirilmiş, onlarca meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaralan səbəb olmuş, 10 nəfər küt alətlə qətlə yetirilmişdir. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da müəyyən etmişlər. İnsanlar amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir.

613 adam öldürülüb, onlardan 63-ü uşaq, 106-sı qadın, yaşlılar - 70 nəfər.
8 ailə tamamilə məhv edilib.
25 uşaq hər 2 valideynini itirib.
130 uşaq bir valideyndən məhrum olub.
487 adam yaralanıb, onlardan 76-sı uşaqdır.
1275 insan erməni cəlladlarına əsir düşüb.
150 nəfər insan itkin düşüb (4, s. 13).

XX əsrin əvvəllərində 1905-1907, 1915, 1918-1920, 1948-1953, tarixi mərhələləri təhlil edərkən 1988-1994-ci illər arasında baş verən hadisələrinin ardıcıllığını aşağıda göstərmək olar.

1988-ci ildən başlayaraq erməni ekspansiyası, ermənilərin Dağlıq Qarabağda apardıqları işğalçı müharibə və etnik təmizləmə azərbaycanlıların soyqırımı qurbanlarının sayını xeyli dərəcədə artırmışdır. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 50 mindən çoxu əlil olmuş, 4 mindən çox əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların doğma yurdu olan yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır.

Bütün bunların nəticəsində təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Onu da demək lazımdır ki, indiki dövrdə Azərbaycanda erməni millətçi zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur (13, s. 9).

1992-ci illərdə tarixi dəyişikliklər məqamından istifadə edən ermənilər öz havadarları ilə birlikdə bizim ərazilərimizdə faciələr törətmiş, minlərlə azərbaycanlıları amansızcasına qətlə yetirmişdilər. Bununla kifayətlənməmişlər.

Dağlıq Qarabağ və 7 rayon tam işğal olunmuş, bir milyondan artıq insanı qaçqın vəziyyətinə salmışlar. XX əsrin əvvəllərindən indiyə qədər ermənilərin planlı və məqsədyönlü siyasəti nəticəsində azərbaycanlı müsəlmanlarına qarşı soyqırımın tarixi ardıcıllığını diqqətlə təhlil etdikdə məlum olur ki, xalqımıza qarşı törədilmiş soyqırımları nəticəsində 2 milyondan çox soydaşımız məhv edilmiş və ölkəmiz maddi və mənəvi itkilərə məruz qalmışdır.

Müasir gəncliyin əsas vəzifəsi güclü dövlət naminə obyektiv tariximizə etinasızlıq göstərməməli, tariximizi dəqiq öyrənməli və qonşularımızın kimlər olduğunu heç vaxt yaddan çıxarmamalıdır.

Bu qiymətli tarixi sənədlər erməni xəyanətini, onların insanlığa, bəşəri dəyərlərə qarşı çevrilmiş eybəcərliklərini bütün dünya qarşısında ifşa etməyə imkan yaratmışdır.

Cənab Prezidentimiz İlham Əliyev ermənilərin ötən əsrdə etdikləri soyqırımı faktlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində mütərəqqi addımlar atmış və atmaqdadır. Bu faciələr tariximizin bütün dövrlərində dəfələrlə təkrarlanmış həqiqətlərdir və bunları unutmağa mənəvi haqqımız yoxdur.

Beləliklə, azərbaycanlı müsəlmanlarına qarşı soyqırımın tarixi mərhələlərini təhlil edərkən XX əsrdə Azərbaycan xalqının məruz qaldığı soyqırımı siyasəti bizə yaşadığımız acı tarixdən ibrət alaraq hadisələrə tarixi, siyasi və hüquqi qiymət verilməsi üçün mübarizə aparmaq və gələcəyi bu gündən düşünməyə vadar etməkdədir.

İnanırıq ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Ermənistan-Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində məqsədyönlü, qətiyyətli mövqeyi Azərbaycan həqiqətlərini bütün dünyaya layiqincə çatdırmaq və bu məsələdə ədalətli həll yolu tapmaq imkanı verəcək.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı // Dirçəliş- XXI əsr, 1998, № 3-4, s. 4-6
2. Abbasov K. Azərbaycanlıların soyqırımı  qisas qiyamətə qalmaz // Azərbaycan, 1 aprel 2006
3. Abdulrazaqova N. Milli birliyə çağırış // Respublika, 30 mart 2003
4. Əbdülsəlimzadə Q. Qanlı yanvardan 15 il keçdi. Bakı, 2005, 161 s.
5. Əliyev C, Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər tarixi həqiqətin soyqırımı. Bakı, 2003, 71 s.
6. Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 25 fevral 1997
7. Qəribov M. 31 Mart azərbaycanlıların soyqırımı günüdür // İrəli, № 5, 2 mart 2007
8. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri. Bakı, 2000, 202 s.
9. Məmmədova L. Azərbaycanda erməni siyasi təşkilatlarının xəyanəti // Respublika, 31 mart 2004
10. Mövsümov N. Qubada erməni terroru. Region plus, № 9 (29), 1 may 2007, s. 24-29
11. Tapdıqoğlu N. 31 Mart azərbaycanlıların soyqırımı günüdür // Zəngəzurun səsi, 31 mart - 06 aprel 2007


## HISTORICAL STAGES OF ARMENIAN GENOCIDE POLICY TOWARDS THE AZERBAIJANI IN THE XX CENTURY.

***Rufat Akhmedzadeh.***

The work makes historical-political analysis of implementing the plan of tsarist Russia on creation of the "Armenian state" after the Gyulistan and Turkmenchay treaties were signed. Basing on historical facts connected with regular migration of the Armenians to truly Azerbaijan lands, massacre of the Azerbaijan population in terms of connivance of tsarist government and later on the bolshevist one, the author makes historical parallels with Nagorno Garabag conflict that went with ethnic purge and ejection of the Azerbaijanis from their historical lands.

## ИСТОРИЧЕСКИЕ ЭТАПЫ АРМЯНСКОЙ ПОЛИТИКИ ГЕНОЦИДА В ОТНОШЕНИИ АЗЕРБАЙДЖАНЦЕВ В XX ВЕКЕ.

***Руфат Ахмедзаде.***

В рабо те проводится историко-политический анализ проведения реализации плана цар ской России по созданию "армянского государства" после подписания Гюлистанского и Тюркменчайского договоров. Основываясь на исторических фактах, свя занных с планомерным переселением армян на исконные азербайджанские земли, погромами и массовыми убийствами азербайджанского населения при попусти тельстве царского правительства, а позднее большевистского правительства, автор проводит исторические параллели с нагорно-карабахским конфликтом, сопровож давшимся проведением этнических чисток, изгнанием азербайджанцев со своих исторических земель.